# Xalqın nicat günü, Azərbaycanın qurtuluş tarixi

**Tarixin bəzi səhifələri qanla yazılır, bəziləri isə xalqın iradəsi və vətənə sevgisi ilə rənglənir. 15 İyun - Milli Qurtuluş Günü Azərbaycan xalqının yaddaşına məhz ümidin, dirçəlişin, sabaha inamın günü kimi həkk olunub. Bu gün sadəcə qayıdış deyil, bütöv bir millətin taleyinə yazılmış dönüş nöqtəsinin tarixidir.**

1990-cı illərin əvvəllərində ölkədə xaos, siyasi böhran, iqtisadi çöküş hökm sürür və vətəndaş müharibəsi təhlükəsi baş alıb gedirdi. İnsanlar ümidsizlik içində yaşayır, sabaha olan inam getdikcə sönürdü. Dövlət institutları fəaliyyət göstərmirdi, ordu pərakəndə vəziyyətdə idi. Müstəqilliyini yenicə qazanmış Azərbaycan onu itirmək qorxusu ilə üz-üzə qalmışdı. Bu zaman xalqın içindən bir səs yüksəldi. Bu, millətin inamını yenidən özünə qaytaran bir liderin - Ulu Öndər Heydər Əliyevin səsi idi. Məhz bu səs qaranlıqda yolunu itirmiş millətin ümid çırağına çevrilib ətrafı işıqlandırdı. Ölkə parçalanmaq üzrə ikən Ulu Öndər zəngin siyasi təcrübəsi, qətiyyəti və dərin dövlətçilik səriştəsi ilə xalqa nicat yolunu göstərdi. Bir xalqın sonsuz inamına layiq şəxsiyyət olaraq, Azərbaycan dövlətinin tarixində və xalqın qəlbində yeni səhifə açdı.

Heydər Əliyev bir dövlət adamı kimi xalqın ruhuna bələd olan, ölkənin gələcəyini görən və bu məqsəd uğrunda qətiyyətlə addımlayan şəxsiyyət idi. Azərbaycan xalqı Ulu Öndərin qayıdışını təkcə xilaskarlıq kimi deyil, bir ümidin təcəssümü olaraq qəbul etdi. 15 İyun günü xalqı öz qaranlıq günlərindən çıxaran və işıqlı yola qovuşduran liderin adı isə heç vaxt unudulmayacaq. Ulu Öndər təkcə bir dövlət adamı, siyasətçi və lider deyil, həm də Azərbaycan xalqını dərindən anlayan, onun nə istədiyini bilən şəxsiyyət idi. Onun liderliyi yalnız siyasi bacarıq və strateji düşüncə ilə deyil, xalqın hissləri və arzuları ilə də sıx bağlı idi. Azərbaycanın xilaskarı kimi qayıtdığı isti iyun günləri ölkənin mənəvi və psixoloji vəziyyəti ilə çox bağlı idi. İnsanlar qorxu və narahatlıq içində sabahı açırdılar, gələcəyə dair ümidsizlik hakim idi. Heydər Əliyev bu ümidsizliyi sona yetirən dahi oldu. Ulu Öndər bütün qorxuları aradan qaldırdı və millətə gələcəyə doğru əmin addımlarla irəliləməyi öyrətdi. Bu, təkcə siyasi zəfər deyil, həm də millətin birliyinin və gücünün təntənəsi idi.

Ümummilli Liderin yenidən hakimiyyətə qayıdışı Azərbaycanın taleyində dönüş nöqtəsi oldu. Dövlətçiliyimizin əsasları məhz onun uzaqgörən siyasəti nəticəsində möhkəmləndi, xaos və anarxiyanın qarşısı alındı. Ordu quruculuğu sürətləndirildi, iqtisadi sabitlik bərpa edildi, xarici siyasətdə balanslı mövqe formalaşdırıldı. Ulu Öndərin "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır" fikri bu gün də xalqımızın milli ideologiyasının əsas dayağıdır. Heydər Əliyevin rəhbərliyi ilə "Əsrin müqaviləsi" imzalandı, nəticədə Azərbaycanın enerji resursları dünya bazarlarına çıxarıldı və ölkə beynəlxalq arenada etibarlı tərəfdaşa çevrildi.

Məhz bu baxımdan dövlətçiliyimizin xilas günü olan 15 İyun Azərbaycan tarixində yeni bir mərhələnin başlanğıcı hesab oluna bilər. Ümummilli Liderin dövlətçilik təcrübəsi sayəsində ölkə tezliklə sabitliyə doğru yönəldi. Anarxiyadan nizama, parçalanmadan birliyə doğru atılan addımlar ölkənin gələcəyinə işıq saçdı. İndi əminliklə deyə bilərik ki, 15 İyun Azərbaycanın yenidən doğulduğu gündür. Böyük qurtuluşun bünövrəsi həmin gün qoyuldu və bu təməl üzərində bugünkü güclü, müstəqil, suveren Azərbaycan dövləti quruldu.

Qurtuluş Günü təkcə keçmişə baxış deyil, həm də gələcəyə olan inamın, xalqın öz liderinə və dövlətinə bəslədiyi etimadın təcəssümüdür. Bu gün azərbaycanlılar dünyanın dörd bir yanında qürurla "Mən azərbaycanlıyam" deyirlərsə, bu duyğunun kökündə həmin günün təntənəsi və onu tarixə yazan Ulu Öndərin şərəfli ömrü, qürurlu taleyi dayanır. Düşünmək olar ki, 15 İyun olmasaydı, indi Azərbaycan bu qədər güclü ola bilməzdi. Ölkəmizin beynəlxalq nüfuzunun artması, dünyada söz sahibi kimi tanınması da həmin günün təntənəsidir. Azərbaycan həm regionda, həm də dünyada öz strateji maraqlarını nəzərə aldıran, əməkdaşlıq və dialoq platformalarında fəal iştirak edən güclü tərəfdaşdır. Bu gün Azərbaycan dünyanın güc mərkəzlərindən biri kimi tarix səhifələrində yer alır.

Qarabağ zəfərinin təməlində də məhz həmin gün atılan siyasi iradə, dövlətçilik ənənəsinin bərpası dayanır. O illərdə ordu tamamilə nizamsız, zəif və parçalanmış vəziyyətdə idi. Lakin Qurtuluş Günündən sonra milli həmrəyliyin bərpası, güclü dövlətin qurulması və ordu quruculuğuna verilən önəm nəticəsində Azərbaycan getdikcə öz gücünü toplamağa başladı. Bu, təkcə Silahlı Qüvvələrin yenidən təşkilatlanması deyil, həm də xalqın ruhunun dirçəlməsi demək idi.

Heydər Əliyevin siyasi xətti Azərbaycanın dövlət müstəqilliyini qorumaqla yanaşı, onu gücləndirdi, beynəlxalq münasibətlərdə balanslı siyasət yürütmək, iqtisadi sabitliyi təmin etmək və cəmiyyətin rifahını yüksəltmək üçün zəmin yaratdı. Bütün bu addımlar nəticəsində Azərbaycan zəif, asılı ölkə deyil, öz qərarlarını sərbəst verən, maraqlarını qoruyan bir dövlətə çevrildi. İndi ölkəmiz beynəlxalq arenada mövqeyini qətiyyətlə müdafiə edir, siyasi iradə sərgiləyir. Bu, Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi gücünün artması, həmçinin milli iradənin möhkəmlənməsi ilə mümkün olmuşdur.

Həmin siyasi iradənin davamı kimi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar, güclü hərbi strategiya və diplomatik uğurlar Qarabağ zəfərinin reallaşmasını mümkün etdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə olunan qələbə, əslində, 1993-cü ildə atılmış düzgün siyasi kursun, milli birliyin və qətiyyətli dövlətçilik ənənəsinin bəhrəsidir. Bu baxımdan təbii ki, Qarabağın və Şərqi Zəngəzurun azadlığı təsadüf deyil. Həmin azadlıq illərlə aparılan uzaqgörən siyasətin, möhkəm milli iradənin və xalq-lider-ordu birliyinin parlaq nəticəsidir. Əgər Qurtuluş Günü olmasaydı, bəlkə də bu gün zəfərdən yox, ümidlərdən danışacaqdıq. Amma biz güclü, qalib və müstəqil dövlətin vətəndaşlarıyıq. Bu dövlətin təməlində xalqın iradəsi, liderin uzaqgörənliyi və tarixə yazılan qurtuluş qərarı dayanır.

15 İyun - Qurtuluş Günü sadəcə təqvimdəki bir gün deyil. Bu tarix Azərbaycan xalqının yaddaşına xilas, birliyə çağırış və qürur günü kimi həkk olunub. Hazırda Azərbaycan öz inkişaf yolunda inamla irəliləyir. Siyasi sabitlik, iqtisadi tərəqqi, beynəlxalq aləmdə artan nüfuz və ən əsası Vətən müharibəsində qazanılan Zəfər Qurtuluş Gününün bəhrəsidir. Bütün dünya görür ki, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni zirvələrə doğru irəliləyir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 15 iyun (№ 122).- S.9.